

**Zeynallı Fikrət Akif oğlu**

Fikrət Akif oğlu Zeynallı 1995-ci il fevralın 23-də Tovuz rayonunun Aşağı Öysüzlü kəndində anadan olub. 2001-2012-ci illərdə A.Hüseynov adına Aşağı Öysüzlü kənd tam orta məktəbində, 2012-2016-cı illərdə Bakı Dövlət Universitetinin Fizika fakültəsində təhsil alıb. Universiteti fərqlənmə diplomu ilə bitirib.

Fikrət Zeynallı 2016-cı ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin “N” saylı hərbi hissəsində xidmət edib.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Fikrət Zeynallı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Şuşa və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə könüllü iştirak edib. Xocavənd döyüşləri zamanı şəhid olub. 21 noyabr 2021-ci il tarixində Tovuz rayonunun Aşağı Öysüzlü kəndində dəfn olunub.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə əsgər Zeynallı Fikrət Akif oğlu "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.